# “Erməni məsələsi və türk-müsəlman soyqırımı”





**Yazıçı-jurnalist, tarixi araşdırmaçı Xəqani İsmayılın qələmindən çıxmış erməni vəhşiliyini əks etdirən 6 kitabı oxucular tərəfindən rəğbətlə qarşılanıb. Bir neçə il öncə “Azəri soyqırımı” adlı tarixi pyesinin Azərbaycan Yazıçılar Birliyində izdihamlı, möhtəşəm təqdimat mərasimi keçirilmişdir. Cəmiyyətin müxtəlif təbəqələrinin, çıxış edən mütəxəssislərin əsərin tarixi-bədii məziyyətləri haqda çıxışlarını KİV-lər, o cümlədən Azərbaycan və ölkəmizdə təmsil olunan Türkiyə televiziyaları vasitəsilə geniş işıqlandırmışdır.**

“Erməni məsələsi”nin tüğyan etdiyi bölgələrdə soydaşlarımızın və həmin bölgələrin digər əhalisinin soyqırımını, etnik təmizləməsini araşdıran Xəqani İsmayıl həmçinin bu bəladan çıxış yolunu - türk ordusunun xilaskar hərəkatını da araşdırıb.

Xəqani İsmayılın 1 Dünya Müharibəsi gedişində Türkiyə, İran, Cənubi və Şimali Qafqaz bölgələrində, Orta Asiyada baş verən ən mühüm tarixi hadisələrə aydınlıq gətirməsi, türk-müsəlman soyqırımını və bölgədə qarşı-qarşıya dayanaraq sanki dünyanın son savaşını verən böyük dövlətlərin müdhiş müharibələrin əsas detallarını aşkara çıxarması, bununla kifayətlənməyib, bu tarixi aralıqdakı fürsətdən sui-istifadə edən ermənilərin gürcülərə, almanlara, yəhudilərə, kürdlərə, ruslara, yunanlara qarşı həyata keçirdiyi vəhşilikləri də ortaya qoyması dövrün gerçək mənzərəsini yaratmaqla gələcək siyasi-hərbi perspektivləri təmin etməkdə politoloqlara, diplomatlara, digər rəsmi dövlət xadimlərinə, siyasətçilərə və əlbəttə, bizlərə — sülh səfirlərinə hərtərəfli informativ baza rolunu oynayır, əcnəbi ölkə nümayəndələri ilə təmaslarda arqumentlərimizi zənginləşdirir, işimizi asanlaşdırır.

Publisist alim, el gözündə pillə-pillə ucalan Xəqani İsmayılın gərgin, yuxusuz gecələrinin bəhrəsi olan Azərbaycan, ingilis və rus dillərində nəşr olunmuş “Erməni məsələsi və türk-müsəlman soyqırımı” ensiklopedik tarixi araşdırma kitabı erməni vəhşiliyini təfsilatı ilə əks etdirən çox sanballı bir kitabdır. Bu kitab I Dünya savaşı fonunda Qafqaz, Güney Azərbaycan, Anadolu və Orta Asiya türklərinin, müsəlmanlarının (habelə xristianların və yəhudilərin) soyqırımının arxiv bölgələri və sənədli qaynaqlar əsasında işıqlandıran bir əsərdir. Müəllif kitaba həmçinin “erməni məsələsi” erməni tarixinin bəzi saxtalaşdırılmış məqamları haqda qeydlərini və qondarma “erməni soyqırımı” təkzib edən elmi araşdırmalarını da daxil edib. Əsərdə türk ordusunun I Dünya savaşı zamanı və onun fonunda Qafqaz, Güney Azərbaycan və Anadolu bölgələrinə qurtarıcı hərəkatı da araşdırılaraq çəkilən nahiyyələr 1915-1921 olaylarına daha geniş aydınlıq gətirilmişdir. Bundan başqa, kitabda türk yazılı abidələrinin qədimliyi də işıqlandırılaraq əsl soyqırıma məruz qalan türk xalqının mədəni kimliyi təqdim edilmişdir. Kitabdakı bəzi araşdırma problemləri isə XX yüzilliyin müxtəlif dönəmlərinə və başqa coğrafiyalara təsadüf edir.




Bu günlərdə Atatürk Mərkəzində yazıçı-jurnalist, tədqiqatçı Xəqani İsmayılın “Erməni məsələsi və türk-müsəlman soyqırımı” adlı Azərbaycan, rus və ingilis dillərində nəşr edilmiş kitabın təqdimat mərasimi keçirilmişdir.

Tədbirdə jurnalistlər, alimlər və qonaqlar iştirak edirdilər.

Təqdimat mərasimini giriş sözü ilə açan BDU-nun professoru Ramiz Əsgər vurğuladı ki, Xəqani İsmayılın hazırladığı və üç dildə işıq üzü görən bu kitab 1918-1920-ci illərdə Azərbaycandan başqa, türk-müsəlman əhalinin yaşadığı bölgələrdə-Anadoluda, Cənubi Azərbaycanda, Borçalıda, Şimali Qafqazda dinc əhaliyə qarşı soyqırım, terror hadisələri arxiv sənədlərinə və elmi qaynaqlara əsaslanaraq geniş araşdırılmışdır.

Tədbirdə çıxış edən kitabın müəllifi Xəqani İsmayıl qeyd etdi ki, 1914-1921-ci illərdə ermənilərin Anadoluda türklərə qarşı törətdikləri kütləvi qırğın və işgəncələr arxiv sənədləri əsasında kitabda öz əksini tapmışdır.

Ümumiyyətlə, Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq kitabın müəllifi Xəqani İsmayıl müxtəlif ölkələrin arxivlərindəki sənədlərə istinad edərək ermənilərin və onların havadarlarının tarixi saxtalaşdırmaq cəhdlərini qətiyyətlə ifşa edir.

X.İsmayıl müxtəlif elmi mənbələrə əsaslanmaqla kifayətlənməyib müxtəlif ölkələrdə müxtəlif dillərdə mövcud olan “erməni soyqırımı”nı yalanlayan sənədləri də ortaya qoymuşdur. Bu sənədlər əsasında I Dünya müharibəsi gedişində “erməni və yunan qırğınları”nı araşdıran Britaniya Krallıq Prokurorluğunun istintaq sənədləri xüsusi önəm daşıyır.

Kitabda geniş oxucu kütləsinə məlum olmayan bir sıra arxiv sənədlərinin surəti də verilib.

Bu baxımdan “Rus diplomat və hərbçiləri ermənilər haqda”, “Kipr və ermənilər”, “Erməni sui-qəsdçiləri Türküstanda” bölmələrində işıqlandırılan, bundan başqa Stepan Şaumyanın sağ qalaraq sonra Hindistanda yaşamasını təsdiq edən gizli sənəd və faktlar indiyədək tarixçilər üçün də qaranlıq məsələlərə aydınlıq gətirilməsi nöqteyi-nəzərindən çox dəyərlidir.

Kitabın müəllifi Xəqani İsmayıl erməni vəhşiliyini açıb göstərən, o cümlədən Qarsda günahsız qadınlara qarşı ağlasığmaz hərəkətləri təsdiq edən önəmli sənədlərə geniş yer vermişdir.

Kitabın sonunda müəllifin “Kəşmir məsələsi”, Ukrayna xalqının “Qolodomor” faciəsi və “Orta Asiyada daşnakların törətdikləri faciələri” kimi elmi ictimaiyyət üçün yeni olan maraqlı təqdimatlar da geniş yer alıb.

“Erməni məsələsi və türk-müsəlman soyqırımı” kitabının təqdimat mərasimində tarix üzrə fəlsəfə doktoru Kamran İsmayılov, Qərbi Azərbaycana Qayıdış Birliyinin sədri Rizvan Talıbov, Qərbi Azərbaycana Qayıdış Birliyi Ali məclisinin sədri Əli Vəliyev, Dünya Azərbaycanlıları Birliyi Qarabağ Azadlıq hərəkatının sədri Limonat Əmrahqızı, şair Zöhrə Xəlilli, pakistanlı Əliəkbər Əliyev, professor Bayraməli Qurbanov, tədqiqatçı Sahib Musayev və başqaları çıxış etdilər. Vurğuladılar ki, üç dildə nəşr olunan bu dəyərli kitab ayrı-ayrı ölkələrdə yaşayan soydaşlarımıza və ayrı-ayrı millətlərin nümayəndələrinə çatdırılmalı, erməni təbliğatının qarşısına sipər çəkilməli. Bütün dünya erməni vəhşiliyi ilə bağlı zəngin məlumata malik olmalıdır...

**Qədir ASLAN,**
**Məhəmməd VƏLİYEV,**
**“Respublika”.**